# 90 yaşlı "Qəbələ"

(Əvvəli 6-cı səhifədə).

şərəfli həyat və yaradıcılıq yollarına dair çoxsaylı məqalələr, araşdırmalar qəzetimiz vasitəsilə oxucu mühakiməsinə verilmişdir. 40-cı, 50-ci illərdə qəzetin səhifələrində Abdulla Ələkbərovun şeirlərinə, bəzən də hekayələrinə rast gəlinir, 60-70-ci illərdə başqa şair və yazıçılarla yanaşı Tacəddin Şahdağlının, Şakir Xəyalın şeir nümunələri daha tez-tez təqdim olunur. Sonrakı, bizə daha yaxın illərdə isə yüzlərlə Qəbələ yazarının yaradıcılıq nümunələri qəzetdə dərc edilmişdir. Qürurlandırıcı haldır ki, Respublikamızda tanınmışlar sırasında elə bir şair, yazıçı yoxdur ki, onun yaradıcılığı "Qəbələ" səhifələrində işıqlandırılmasın.

Məktəb həyatına həsr olunmuş materiallar ilbəil oxucu marağının genişlənməsinə səbəb olur, ona görə də belə yazılar daha tez-tez dərc olunur. 5 dekabr 1960-cı ildə 75 yaşı tamam olan Qutqaşen orta məktəbinin yubileyinə xüsusi səhifə həsr olunur. Sonrakı illərdə təhsil sahəsi, onun öncülləri, nümunəvi məktəblər və onların keçirdiyi müxtəlif tədbirlər, qabaqcıl müəllimlər, əlaçı şagirdlər, məzunların nail olduğu uğurlar rayon qəzetində mütəmadi işıqlandırılır və bu ənənələr günümüzə kimi davam etdirilir.

Ağrılı-acılı, faciələr gətirən Qarabağ mövzusu yarandığı vaxtdan heç zaman gündəmdən düşməmişdir. Yəni 1988-ci ildə ermənilərin məkrli niyyətlə açıq hərəkətə keçdiyi dövrdən "Qəbələ" qəzeti səhifələrində Qarabağın tarixinə, mənfur qonşularımızın çirkin əməllərinə, xalqımıza qarşı törətdikləri cinayətlərə aydınlıq gətirən, torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə şəhid olan övladlarımıza, qazilərimizə, müharibə iştirakçılarına dair yazılar, demək olar ki, bütün saylarda dərc olunmuşdur. Birinci Qarabağ müharibəsi illərində, 2020-ci il 44 günlük İkinci Qarabağ - Vətən müharibəsi günlərində "Qəbələ" döyüşən qəzetə çevrildi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin genişmövzulu çıxışlarını, müsahibələrini, rəşadətli Milli Ordumuzun uğurlarını və nəticədə düşmən üzərində çaldığı Zəfəri, şəhid və qazilərimizin qəhrəmanlığını ardıcıllıqla öz səhifələrində nümayiş etdirdi. Və bu mövzular öz aktuallığını itirmir, bu gün də işıqlandırılır.

**Vurğunu olduğum qayğıkeş qəzet**

Qəzetlə əməkdaşlığımız, onun yaradıcı kollektivi ilə bu günə kimi, yəni əlli ildən artıqdır ki, davam edən dostluğumuzla, doğma münasibətlərimizlə bağlı, burda çalışan fədakar qələm sahiblərinin yaradıcılığına aid, eləcə də "Qəbələ"-nin keçdiyi şanlı, şöhrətli tarixə dair "Qəbələ: insanlar, talelər, ziyalılar" (1996-cı il, II kitab) adlı kitabımda faktlara istinad edərək, geniş yazmışam. İndi isə qısa xronika ilə kifayətlənmək qərarına gəldim. Belə ki, 1971-ci ildə ədəbi yaradıcılığa ilk dəfə məhz "Qalibiyyət" qəzetinin səhifələrində kövrək, çəlimsiz yazdığım kiçik məqalələrlə başlamışam. O unudulmaz zaman kəsiyindən sonra Rusiya və Azərbaycan mətbuatında yüzlərlə məqaləm və oçerkim, müsahibəm və zarisovkam dərc edilmişdir. Amma tam səmimi deyirəm, məni tanıyanlar da bunu bilirlər, "Qəbələ" qəzeti mənim qələm məktəbim, sevimli və vurğunu olduğum nəşr olaraq qalır. Uzun illər Tümendə yaşadığım vaxtlarda da qəzetlə əlaqəmiz kəsilməyib. Oradakı qüsursuz xidmətlərimlə bağlı qəzetimizin 13 mart 1986-cı il tarixli sayında Nijnevartovsk sakini Tahir Bağırovun "Fəxr edirik" sərlövhəli yazısı dərc olunmuşdu. O uzaq diyardan göndərdiyim, el-obaya dair xatirələrim, orada 1987-ci ildən başlayaraq milli məsələnin açıq şəkildə qarşısı barədə yazdığım qeydlər və xidmətimi doğma məmləkətimizə dəyişdikdən sonra onlarla publisist yazılarım, müəllifi olduğum, işıq üzü görmüş 42 kitabımın hər birinə dair təqdimatlar, atam, qabaqcıl maarif xadimi, tanınmış pedaqoq Hüseyn Məmmədovun (1920-2002) da çox sevdiyi və 1947-ci ildən ömrünün sonuna kimi əməkdaşlıq etdiyi "Qəbələ" qəzetində dərc edilmişdir. Qeyd etməliyəm ki, işimi yurdumuz üçün məşəqqətli dövrdə doğma Respublikamıza dəyişməklə bağlı çətin proseslərlə üzləşdiyim aylarda, o vaxtki redaktor, məhsuldar və iti qələm sahibi, gözəl və unudulmaz insan, mərhum Əziz Əzizovun təşəbbüsü ilə, yaradıcılığına və insani keyfiyyətlərinə böyük hörmət bəslədiyim Bibixanım İsayevanın hazırladığı "Torpaq səni səsləyir" adlı yazı doğma qəzetin 14 fevral 1992-ci il nömrəsində oxuculara çatdırılmışdı. Bu yazıyla doğma qəzetimizin kollektivi ağır günlərimdə mənə dəstək oldu. Təvazökarlıqdan kənar olsa da bir sevindirici faktı da xatırlatmaq fikrindəyəm; 2014-cü il iyul ayında "Xalq qəzeti"nin fəaliyyətimə həsr etdiyi "Azərbaycan həqiqətlərinin yorulmaz təbliğatçısı" sərlövhəli geniş məqalə "Qəbələ"nin səhifələrində də oxucuların ixtiyarına verilmişdi.

"Qəbələ"nin hörmətli və bacarıqlı rəhbərliyinə, dəyərli və vətənpərvər əməkdaşlarına can sağlığı, iş avandlığı və ölkəmizin işıqlı gələcəyi uğrunda yeni-yeni nailiyyətlər arzulayıram!

**Ramin MƏMMƏDOV,**
**yazıçı-publisist, müharibə veteranı, Qaradağ Rayon Ağsaqqallar Şurasının sədri.**

# Təşəkkür, şəhidim

33 il əvvəl doğulduğum, ilkin uşaqlıq çağlarını yaşadığım Qarabağ bölgəsindən, Xocavənddən qovulmuşduq. Cəmi 10 yaşım var idi. Evimizi, ocağımızı, əşyalarımızı orada qoyub Azərbaycanın müxtəlif bölgələrinə səpələndik... Ancaq bir daha, tezliklə qayıtmaq ümidilə.

Uşaqlığımı top atəşləri, qrad səsləri, göz önündə insan ölümləri, yanğınlar, yağmalamalar içində görmək və düşünməyin nə olduğunu yalnız onları yaşayanlar bilər. Dildə demək asandır qaçqın və məcburi köçkün sözlərini demək. Bu sözlərin acısını, ağrısını bu adı daşıyanlar bilər... Ocağının tüstüsünü iyi burnundan, obasının gözəllikləri və onların tari-mar olunması gözlərinin önündən getməyən insanlar həmişə vətən - yurd həsrətli olarlar. Bu həsrət onların yanğılı zümzüməsi olar hər an...

Hər dəfə qaçqın sözünü adımızın əvvəlində eşidəndə mənəvi əzab çəkirdik. İnsan da öz vətənində qaçqın olardımı?.. Erməni mənfurlarının törətdikləri soyqırımlar, körpədən yaşlıyadək insanları min əzabla qətlə yetirmələri, qar, şaxtada nazik paltarlarla, çox zaman ayaqyalın meşələrə, çaylara, dağ-dərələrə ölümdən qaçan soydaşlarımız hər an yaddaşımızda. Ən başlıcası isə torpaqlarımızın yad tapdağında illərlə qalması. Məğlub ölkənin vətəndaşı adının ağırlığı insanın qəlbini parçalayırdı. Dünyasını dəyişənlərimiz Vətən, torpaq, öz ocaqlarının qoxusuna həsrət halda, gözləri açıq, əlləri "uzanılı" dünyasını dəyişir, dədə-baba qəbiristanlıqlarında deyil, ölkəmizin müxtəlif bölgələrində - məskən saldıqları yerdə dəfn olunurdular. Bütün bunlar və s. - hiss və duyğular çətinliklərlə bərabər bizlərin yaşayış tərzimizin acı da olsa həqiqi həqiqəti idi. Torpaqlarımızı azad etmək, bütöv vətən uğrunda çalışmaq, mübarizə aparmaq üçün hərbçi oldum. İllərlə vətənə xidmət etdik. Atəşkəs olmasına rəğmən həmişə erməni işğalçılarının terrorist hərəkətlərilə rastlaşdıq, lazımi cavablarını verdik. Azərbaycan oğulları, xüsusilə qaçqın adı daşıyan hərbçilər hər an döyüşə hazır idi. Ali Baş Komandanımızın, Azərbaycan prezidenti İlham Əliyevin qan tökmədən torpaqlarımızı azad etmək üçün apardığı siyasətə baxmayaraq, verilən qərar və qətnamələr kağız üzərində qaldı. Ancaq hər bir işin, hadisənin də bir səbr məqamı var. Ermənilər güclü bir cavab almalı idilər. 2020-ci ilin iyul hadisələri və bu terror hadisələrində 12 nəfər yüksək titullu hərbçilərimizin, xüsusilə general-mayor Polad Həşimovun ölümü baş verəcək müharibəni tezləşdirdi. Ali Baş Komandanın səfərbərlik çağırışına xalqımızın vətənpərvər oğulları səs verdi. Xalq ilə ordu birləşdi...

2020-ci ilin 27 sentyabrında başlanan 44 günlük müharibədə lap gənc - 18 yaşından yuxarı gənclər mərdliklə döyüşdülər. Qorxmaz, ölümün gözünə dik baxan igid oğullarımız düşmən tapdağında olan rayonlarımızı döyüşərək geri qaytarırdılar. Mən də bir hərbçi kimi döyüşürdüm və igidlərimizin döyüş şücaətini, şəhadətə qovuşmasını görürdüm. Döyüşdə təkcə qarabağlılar deyil, Azərbaycanın ucqar nöqtələrindən gələn oğullar döyüşürdülər. Ölümdən qorxmayaraq döyüşürdük biz...

Mənim Xocavəndim uğrunda gedən döyüşlərdə Qəbələli həkim gənc Aqşin Ənvərli də iştirak edirdi. Həm həkim, həm də döyüşçü kimi döyüşən bir gənc olmuşdur. Aqşin xüsusi təyinatlı leytenant olmuşdur. Aqşin dəfələrlə yaralanmasına rəğmən döyüşçülərə tibbi xidmət göstərərək yüzlərlə yaralını həyata qaytarmışdır. Həmçinin silahla da erməni yağılarını məhv etmişdir. Onun qəhrəmanlığı haqda sosial səhifələrdə çox oxumuş və eşitmişəm. Özüm ağır yaralanaraq sağlamlığımı itirmişəm, bir sözlə, canlı şahidəm. Yaşadığım həyat dərmanlardan asılıdır...

Bir qarabağlı, bir döyüşçü kimi torpaqlarımızın erməni tapdağından təmizlənməsində şəhadətə qovuşan igidlərimiz qarşısında baş əyirəm. Əlalxüsus Xocavənd - dünyaya göz açdığım bu gözəl diyar uğrunda vuruşaraq şəhid olanlara ikiqat borcluyam. Onlar mənim obam uğrunda döyüşərək canlarını belə qurban vermişlər. Məhz Aqşin Ənvərlinin valideyinləri qarşısında baş əyirəm. Belə bir oğul böyütdükləri üçün minnətdaram onlara!

Vətənin ayrı-ayrı məkanları olmaz əsgər üçün. Vətən bütövlükdə Azərbaycandır. Ancaq öz doğulduğum bir məkan kimi o yer uğrunda döyüşən hər bir əsgərə təşəkkür edir və şəhidlər önündə baş əyirəm.

Ali Baş Komandan Azərbaycan ordusunun əsgərlərinə güvənir və bu güvənclə də zəfər çalmış və erməni terroristlərinə layiq olduqları cavabı vermişdir. Azərbaycan torpaqları harada mənimsənilmişsə, harada əsirdirsə, harada azərbaycanlılarsızlaşdırılmışsa hamısını Ali Baş Komandanımız lazım olan yolla, lazımi tərzdə birləşdirəcəkdir. Çünki onun arxasında xalq dayanıb. Bu xalqın da Aqşin kimi övladları olmuş və vardır.

İgid Aqşinimiz, məkanın cənnət olsun! Sən hər bir qarabağlının, hər bir Azərbaycan oğlunun, vətəndaşının qəlbində əbədi yaşayacaqsan!

**Zaur ŞİRİNOV,**
**hərbçi, qazi.**

# "Milli irsimiz - xalçaçılıq sənəti" adlı tədbir həyata keçirilib

27 oktyabr 2023-cü il tarixində Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi Azərbaycan Respublikasının 2022 - 2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3378 nömrəli Sərəncamına əsasən, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin 3-24/3-1-f-166/2023 nömrəli, 17 iyul 2023-cü il tarixli əmrinin icrası ilə əlaqədar "Qızıl payız" layihəsi çərçivəsində "Milli irsimiz - xalçaçılıq sənəti " adlı tədbir həyata keçirib.

Layihə çərçivəsində ilk olaraq Qəbələ rayon sakini, uzun illər xalçaçılıq sənəti ilə məşğul olan, bu sənəti yaşadan Tənzilə Həşimova ilə görüş təşkil edilmiş, bu sənətin öyrənilməsi, sirləri, toxunma prosesi haqqında məlumatlar əldə olunmuşdur .

Tədbirlər planına əsasən "Azərxalça" ASC-nin Qəbələ rayon filialına və Qəbələ Dövlət Peşə Təhsil Mərkəzinə ekskursiyalar təşkil edilmişdir. Burada xalçanın toxunma texnologiyası, növləri, ipək, yun, pambıq saplardan xalçaların ərsəyə gəlməsi prosesi ilə tanışlıq olmuşdur. Son olaraq Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində Xalçaçılıq bölməsində təhsil alan tələbələrin nəzəri-praktiki olaraq bacarıqlarına və əl işlərindən ibarət sərgiyə baxış keçirilmişdir. Layihənin əsas məqsədi Azərbaycan xalq sənətinin nümunələrinin gənc nəslə təbliği, qədim irsə malik sənət növlərinin inkişafı, qorunması və yaşadılmasıdır.

**Qəbələ Rayon Tarix-Diyarşünaslıq Muzeyi.**

«QƏBƏLƏ» qəzetinin reklam xidməti

205-19-14, 205-15-56

## İTMİŞDİR

Qəbələ rayon Tikanlı kənd sakinləri **Rəhimov Elçin Umar oğlu, Rəhimova Sənubər Şövkət qızı, Rəhimov Sənan Elçin oğlu, Rəhimov Kənan Elçin oğlu, Soltanova Bahar Umar qızına məxsus şəxsiyyət vəsiqəsi, doğum haqqında şəhadətnamə, nigah haqqında şəhadətnamə, torpaq sənədləri və Rəhimov Elçin Umar oğluna məxsus sürücülük vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

Azərbaycan Respublikası Əmlak Məsələləri Dövlət Xidməti Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik hüquqi şəxsi tərəfindən Qəbələ şəhər sakini **İlyasova Afaq Əbil qızına** verilmiş reyestr nömrəsi 406013113081 olan torpaq sahəsinə aid **çıxarış** və AA 625555 nömrəli **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

Qəbələ şəhər sakini **Qarayev Rəfayıl Məhəmməd oğluna** məxsus ZAZ 36 BB 697 nömrəli minik maşınının **texniki pasportu və qeydiyyat nişanı** itdiyi üçün etibarsız sayılır.

Redaktor
Azad Məmmədov.

TƏSİSÇİLƏR:
Qəbələ Rayon İcra Hakimiyyəti və redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında
hesab № Az36AİİB
33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.

*Dizayner Rais Rəşidov*

Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.

*Tiraj 1.260*